**Könüllü qanvermə aksiyası**

Fevralın 28-də «Savab dünyası» Talassemiya Assosiasiyasının təşkilatçılığı ilə Vergilər Nazirliyinin əsas binasında könüllü qanvermə aksiyasına start verilmişdir. Aksiya mart ayının 7-dək nazirliyin yerli strukturlarında davam etdiriləcək. Dünən 222 nəfər vergi xidməti əməkdaşı qan vermişdir və aksiya çərçivəsində toplanılan qan talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara bağışlanılacaq.

Talassemiya irsi qan xəstəliyidir və ölkəmizdə hər il 300-ə yaxın uşaq bu xəstəliklə doğulur. 2005-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə «Talassemiyasız həyat naminə» proqramı həyata keçirilməyə başlanmış və ölkənin birinci xanımı hər kəsi talassemiyalı uşaqlara yardım etməyə çağırmışdır. Bu proqram çərçivəsində 2009-cu ildə talassemiya xəstəliyindən əziyyət çəkənlərin diaqnostikası və müalicəsi məqsədilə Talassemiya Mərkəzi açılmışdır. Bundan başqa, talassemiya xəstəliyinin müalicəsi baha başa gəldiyi üçün xəstələr Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq lazımi müayinə, müalicə və dərmanlarla, o cümlədən dəmirqovucu preparatlarla təmin olunurlar.

Azərbaycanda talassemiya probleminin həll edilməsi və uşaqlara yardım göstərilməsi üçün təşkil edilmiş «Savab dünyası» Talassemiya Assosiasiyasının əsas məqsədlərindən biri ölkəmizdə qan donoru ilə bağlı təbliğatın gücləndirilməsidir. Talassemiya xəstələrinin davamlı olaraq qana ehtiyacları olduğundan, kütləvi keçirilən qanvermə aksiyalarının mühüm əhəmiyyəti vardır. Korporativ donorluq təşkilatda sosial məsuliyyətin formalaşmasına və güclənməsinə, korporativ mədəniyyətin inkişafına xidmət edir.

Həkim Könül Muxtarlı: «Heç bir əməl xeyirxah iş qədər insanları bir-birinə yaxınlaşdırmır. Donorluğun inkişaf dərəcəsi hər bir cəmiyyətin mədəniyyət səviyyəsinin göstəricisidir. Belə aksiyalarda Vergilər Nazirliyi dövlət orqanları arasında örnək ola biləcək fəallıq göstərir. Bu, sayca 6-cı qanvermə aksiyasıdır və nazirliyin əməkdaşları bu xeyirxah işdə fəal iştirak edirlər».

Vergilər Nazirliyinin şöbə rəisi Elçin Bəylərov: «Aksiyanın əsas devizi, «Donorluq - bir dəyərdir» tezisi, sözsüz ki, həyatı bizdən asılı olan insanlara qan hədiyyə etmək kimi nəcib bir işin mahiyyətini dəqiq əks etdirir. Biz «Donor günü» adlanan tədbirdə fəal iştirak etməklə xəstə insanların qana olan ehtiyaclarını ödəyərək onlara, qismən də olsa, mənəvi dəstək vermiş oluruq. Qeyd etməliyəm ki, nazirlik tərəfindən, hər il olduğu kimi, bu il də qanvermə kampaniyası çox yüksək səviyyədə təşkil olunmuş, hər bir struktur üzrə qrafik müəyyən edilmişdir ki, bu da cari işlərimizin ahəngdarlığını pozmadan kütləvi şəkildə aksiyada iştirakımıza şərait yaradır. Bu işdə əməyi olan bütün insanlara təşəkkürümü bildirir və ümid edirəm ki, verdiyimiz qan xəstə uşaqların müalicəsinə öz müsbət töhfəsini verəcək».

Maliyyə-təsərrüfat idarəsinin əməkdaşı Nərgiz Bədəlova: «Bu cür aksiyalara qatılmaq insanda mənəvi rahatlıq duyğusu yaradır - bir körpənin həyatını xilas etmək, bir ürəkdə yaşamaq ümidi yaratmaq həqiqətən də savab işdir. Nazirliyin əməkdaşlarının talassemiyalı uşaqlara qan hədiyyə etmək aksiyasında fəal iştirak etmələri həm də xalqımızın xeyirxahlıq ənənələrinin ləyaqətlə davam etdirildiyini əyani təsdiq edir».

Arzu İBRAHİMOVA